**Birləşmiş Vyana İnstitutunda " Milli hesablar statistikası" mövzusunda keçirilmiş kurs haqqında**

Dövlət Statistika Komitəsinin Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin baş məsləhətçisi K.Cəlilova və aparıcı məsləhətçisi A.Alpaşayeva 22 oktyabr – 2 noyabr 2012-ci il tarixində Beynəlxalq Valyuta fondunun (BVF) Statistika Departamenti və BVF-in Potensialın İnkişafı İnstitutunun Birləşmiş Vyana İnstitutunda (BVİ) Milli hesablar statistikasına dair təşkil etdiyi iki həftəlik kursda iştirak etmişlər. Tədbirdə 20 ölkədən 30 nümayəndə iştirak edirdi.



Kursun əsas məqsədi MHS-2008 konsepsiyası əsasında Milli hesablar statistikasının tərtib edilməsi üzrə nəzəri və təcrübi məlumatlarla iştirakçıları tanış etmək, ölkələrin qarşılaşdıqları problemlər və digər məsələlərlə bağlı müzakirələr aparmaq olmuşdur.

Kursun proqramı mühazirələr, praktiki məşğələlər, ölkələrin təqdimatları və aktual suallara həsr olunmuş müzakirələr formasında təşkil edilmişdir. Mühazirələr MHS -2008 haqqında ümumi məlumat, institusional vahidlər və onların qruplaşdırılması, axınlar, ehtiyatlar və onların qeydiyyata alınma qaydaları, İstehsal hesabı, İqtisadiyyatın sahələri üzrə məhsul buraxılışı, Xərc komponentləri üzrə ÜDM, Milli hesablarda həcm və qiymət göstəriciləri, Milli hesablarda zəncirvari indekslər üsulu, Ehtiyat-istifadə cədvəlləri, Hesabların ardıcıllığı, MHS-1993-lə müqayisədə edilən dəyişikliklər kimi mövzuları əhatə etmiş və mövzular haqqında geniş məlumat verilmişdir.

2008-ci ilin MHS-nin ən mühüm dəyişikliklərindən biri elmi-tədqiqat işlərinə çəkilən xərclərin kapitallaşdırılması tövsiyəsidir. Müzakirələrdə bu tövsiyənin əməli tətbiqi zamanı kapital yığımına aid olan elmi-tədqiqat işlərinin, habelə onların

istifadə müddətlərinin müəyyən edilməsi ilə bağlı yaranan çətinliklərdən bəhs edilmişdir.

Komitənin nümayəndələri tərəfindən hazırlanan "Azərbaycanda MHS-2008-in tətbiq edilməsi" mövzusunda təqdimat kurs iştirakçılarına təqdim olunmuş və BVF-in Statistika Departamentinin baş iqtisadçısı cənab Eric Metreau Azərbaycanda bu sahədə işlərin digər MDB ölkələri ilə müqayisədə daha məqsədyönlü və tam şəkildə həyata keçirildiyi qənaətinə gəldiyini bildirmişdir. Kursun son mövzusu 1993-cü ilin MHS ilə MHS- 2008 arasındakı əsas fərqlərə həsr olunmuşdur.